# MİRZƏYEV KƏRƏM ƏRŞAD OĞLU



Mirzəyev Kərəm Ərşad oğlu 20 may 1960-cı ildə Qubadlı rayonunun Xanlıq kəndində doğulmuşdur. 1977-ci ildə doğma kəndlərində orta məktəbi bitirdikdən sonra 1978-ci ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verərək, Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutuna daxil olmuşdur. 1983-cü ildə su qurğuları tikinti mühəndisi fakültəsini bitirərək doğma yurdu Qubadlıya qayıtmışdır. 1983-85-ci illərdə Sovet Ordusu sıralarında Arxangelsk və Murmansk şəhərlərində tank qoşun hissələrində hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olunduqdan sonra - 1990-cı ilə qədər 21 saylı Tikinti İdarəsində müxtəlif vəzifələrdə çalışmışdır. 1990-cı ildə Qubadlı rayon Polis Şöbəsində sahə müvəkkili kimi işə başladı. Çox keçmədən ona baş leytenant rütbəsi verilir. Sonra Respublika Daxili İşlər Nazirliyi gənc polis zabitini Kalininqrad Ali Hüquq Akademiyasına göndərir. O, fərq imtahanlarını müvəffəqiyyətlə verdiyinə görə Akademiyanın ikinci kursuna qəbul edilir. Erməni basqınlarının başlandığı ilk günlərdən Qubadlı rayonunun müdafiəsində onun müstəsna xidmətləri olmuşdur. O, rayonun Novlu, Seytas, Yuxarı və Aşağı Cibikli, Əyin, Əliquluuşağı və başqa sərhəd kəndlərində gedən şiddətli döyüş əməliyyatlarında fəal iştirak etmişdi. 1991-ci ildə polis yoldaşları ilə birlikdə düşmənin Gorus rayonunun Şurnuxu kəndində yerləşən beş strateji postunu sıradan çıxarmışdı. Bu döyüşdə düşmənin xeyli canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdi. Kərəm erməni quldurunun saysız-hesabsız hərbi silah, döyüş sursatını ələ keçirib, 1ədəd BMP, 1 ədəd BTR və 1 ədəd hərbi sursatla dolu “Zil” markalı yük maşınını ələ keçirərək daxili işlər şöbəsinə təhvil verib. 1992-ci ilin aprelində keçirilən “Laləzar” əməliyyatında erməni quldurlarının başçısı Karenin dəstəsi darmadağın edildi. Onun cəsədini 30 azərbaycanlı əsirə dəyişdirdilər. 1992-ci il oktyabrın əvvəlində Laçın rayonunun Mazutlu kəndində iki gün davam edən şiddətli döyüş nəticəsində Milli Ordunun əsgərləri düşməni geri çəkilməyə məcbur etmişdi. Ermənilər əlavə qüvvə alaraq yenidən mövqelərimizə hücum edir. Polis əməkdaşlarımız mühasirəyə düşür. O, böyük bir dəstəni mühasirədən çıxarır, özü isə qəhrəmancasına həlak olur. Qubadlı rayon Xanlıq kəndində dəfn edilmişdir. Evli idi. Bir oğlu yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı fərmanı ilə Mirzəyev Kərəm Ərşad oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir Xanlıq kənd 1 saylı orta məktəb onun adını daşıyır. Hazırda bu məktəb Bakı şəhəri Binəqədi rayonunda fəaliyyət göstərir.